# 7–11-Cİ SİNİFLƏRDƏ KİMYADAN FRONTAL LABORATORİYA İŞLƏRİNİN TƏŞKİLİ VƏ APARILMASI METODİKASI

**B.Q.Məmmədov[1], V.H.Əsgərov[2]**

*[1]Naxçıvan Dövlət Universiteti. [2]Lənkəran Dövlət Universiteti*

Məktəb kimya kursunun tədrisində tətbiq olunan müxtəlif təlim formaları içərisində frontal laboratoriya metodu xüsusi yer tutur. Belə ki, frontal laboratoriya metodu təlim prosesində materialın mənimsənilməsi prosesinə kömək edən zəruri vasitə kimi iştirak edir. Bu metod şagirdlərdə reaktivlər və cihazlarla davranmağa dair ilkin praktik bacadıq yaradır. Frontal laboratoriya işində bütun sinif eyni işi icra edir. Şagirdlərin hər birini laboratoriya avadanlığı və reaktivlərlə təmin etmək mümkün olmadıqda sinif şagirdləri 2-4 nəfərdən ibarət qruplara bölünə bilər. Frontal məşğələdə bu və ya digər tapşırığın icrası prosesində bütun sinif müəllimin birbaşa müşahidəsi altında olur. Belə halda buraxılan səhvlər tez aşkar olunur və aradan qaldırılır.

Frontal laboratoriya məşğələsində istifadə olunan cihazlar sadə olmalıdır. Frontal laboratoriya məşğələsində praktikumdan fərqli olaraq dərsin sonunda eksperimentin nəticəsini bütün siniflə müqayisə əsasında müzakirə etmək olur. Frontal laboratoriya məşğələsinin müsbət tərəflərinə baxmayaraq fənnin metodik məsələlərini tam həll etmr. Buna görə də kimya kursunda böyük mövzuların öyrənilməsindən sonra  və ya kursun sonunda təkrarlayıcı laboratoriya praktikumu keçilir.

Frontal laboratoriya işlərinə müəllimin rəhbərliyi şifahi və ya yazılı təlimatı formasında ola bilər. Bu formalardan hansının seçilməsi işin mürəkkəbliyindən, didaktik məqsəddən və şagirdlərin hazırlıq səviyyəsindən asılı olur. Şifahi rəhbərlik frontal laboratoriya işlərinə  şagirdlərdə zəruri eksperimental bilik, bacarıq olmadığı ilk dörlərdə olur. Şifahi rəhbərlik şagirdlərin bütün fəaliyyətini nəzarətdə saxlamağa imkan verir. Şagirdlərdə eksperimental bacarıq inkişaf etdikcə şifahi rəhbərlik yazılı təlimatla əvəz olunur. Yazılı təlimat şagirdlərin müstəqil işləməsinə kömək edir. Müəllim isə şagirdlərin işi icra etmələrinə nəzarət edir və yaranan çətinliyi və yol verilən səhvi aradan qaldırmaq üçün zəruri olan köməkliyi edir. Yazılı təlimat adətən aşağıdakı məz-mumda olur:

- işin sıra nömrəsi və adı
- işin məqsədi
- təchizat
- işin məzmunu
- işin aparılması ardıcıllığı və metodu

- sxem və cədvəllərin qurulması
- nəticələrin analizinə dair hesabatın hazırlanması

Şagirdlərdə eksperimental bacarıq və vərdişlər inkişaf etdikcə yazılı təlimatın maddələri qısaldılır və onlara işin aparılmasında daha çox müstəqillik verilir.

Laboratoriya işlərinə ayrılan vaxt qısa müddətli (5-15 dəqiqə), bir saat (bir dərsdə) iki saat (iki dərsdə) olur. Qısa müddətli laboratoriya işində şagirdlərdə əsasən kimyəvi hadisələr, anlayışlar və qanunuyğunluqlar haqqında təsəvvürlər inkişaf edir, onlarda eksperimental bacarıq, müşahidə etmək vərdişi,sadə cihazlarla işləmək, eksperimenti aparmaq, alınan nəticələri analiz eymək, nəticə çıxarmaq kimi vərdişlər formalaşır. Qısa müddətli frontal laboratoriya işləri birsaatlıq işlərdən fərqli olaraq xarakter xüsusiyyətlərə malikdir. O bütün siniflərdə (7-11) kimyanın mövzularını əhatə edir. Bu tip laboratoriya işləri az vaxt daxilində icra olunduğuna görə onları dərsin müxtəlif mərhələlərində tətbiq etmək olur:

-dərsin mövzusuna giriş
- təlim probleminin qoyulması
- müəllimin izahı
- öyrənilən materialın ümumiləşdirilməsi və təkrarı

Qısamüddətli frontal laboratoriya işləri şagirdlərin dərketmə imkanlarına uyğundur və tədricən mürəkkəbləşməklə bilik və bacarıqların mərhələ ilə formalaşmasını təmin edir. Onlar həmçinin şagirdlərin təfəkkür fəaliyyətinin inkişafına, analiz, sintez, müqayisə, ümumiləşdirmə və s. əməliyyatlar aparılmasına şərait yaradır. Şagirdlərin təfəkkür fəaliyyətinin aktivləşməsinə laboratoriya işi prosesində uyğun suallar qoymaqla da mümkün olur.

Laboratoriya məşğələlərinin əsas növləri frontal laboratoriya işləri və kimya praktikumu hesab olunur. Bir çox laborayoriya işlərinin onların mövzusuna görə frontal və ya praktikumlara aid olunması şərtidir. Bu kimya kabinetinin avadanlığından, hər bir işdə müəllimin qoyduğu problemlərdən və s. asılıdır.

Şagirdlərin kimya eksperimentlərini aparmaları üçün birinci növbədə laboratoriyada işləməyin ümumi qaydalarına əməl etmələri zəruridir:

- sınaq şüşələri, ölçü qabları, ştativlər, spirt lampası və ya qaz plitəsi ilə davranmaq;
- bərk maddələri həlletmək, qızdırmaq, süzmək;
- turşular və qələvilərin məhlulları ilə davranmaq;
- tələb olunan faizli və molyar qatılıqlı məhlulları hazırlamaq;
- hazır hissələrdən qazları almaq üçün cihazları quraşdırmaq, qazları havanı və suyu sıxışdırıb çıxarmaqla qablara doldurmaq;
- oksigen, hidrogen, karbon qazı, turşu və qələvi məhlullarını təyin etmək
- təhlükəsizlik texnikası qaydalarına əməl etmək

Məqalədə orta ümumtəhsil məktəblərinin 7-11-ci siniflərinin kimya kursunda frontal laboratotiya işlərinin ararılmasına dair metodik işləmə verilir. Əvvəldə qeyd olunduğu kimi frontal laboratoriya eksperimentləri müəllimin şifahi və yazılı təlimatı əsasında aparılır. Müəllim 7-ci sinifin kimya kursunun ilk mövzularının tədrisində eksperimentləri nümayiş edirməklə şagirdləri tədricən laboratoriya təcrübələrinin aparılmasına cəlb edir, laboratoriyada işləməyin yuxarıda göstərilən qaydalırını onlara öyrədir. Şagirdlər müəllimin dərslərdə nümayiş etdirdiyi eksperimentləri müşahidə etməklə nəticə çıxarır, ümumiləşdirmələr aparırlar və nəticədə onlarda eksperimentləri müstəqil icra etməyə maraq oyanır. Müəllim 7-ci sinif şagirdlərində laboratoriya təcrubələrini aparmaq bacarığının yarandığını nəzərə alaraq şifahi təlimat əsasında siniflə frontal laboratoriya təcrübələrinin aparmasını təşkil edir. Burada müəllimin «Fiziki və kimyəvi hadisələr» mövzusunun tədrisində şagirdləin fiziki və kimyəvi hadisələrin fərqini eksperiment vasitəsi ilə dərk etmələri və onların laboratoriya işlərini müstəqil aparmağa hazırlanmaları üçün təşkil oluna biləcək frontal laboratoriya işinin aparılması metodikası verilir.

**Mövzu: «Fiziki və kimyəvi hadisələr»**

**Təchizat:** sink metalı, xlorid turşusu (HCl), mis(II)sulfat məhlulu, natrium-hidroksid (NaOH), şəkər tozu ($C_2H_{22}O_{11}$), həvəng, sınaq şüşələri, distillə suyu, spirt lampası, şüşə çubuqlar.

Bu avadanlıqlar əvvəlcədən müəllimin və şagirdlərin stollarının üstündə olmalıdır.

**Frontal laboratoriya işləri:**

1. Sınaq şüşəsinə bir qədr şəkər tozu tökün, üzərinə distillə suyu əlavə edib, şüşə çubuqla qarışdırın. Nə müşahidə olundu? Müşahidə olunan hadisəni izah edin.

2. Sınaq şüşəsinə bir qədər su tökün, spirt lampasının alovunda qızdırın. Maye su hansı dəyişikliyə uğradı? Müşahidə olunan dəyişikliyi hansı hadisəyə aid etmək olar?

3. Kiçik təbaşir parçası götürün və həvəngdə əzərək toz halına salın. Hansı hadisə müşahidə olundu? Cavabınızı əsaslandırın.

4. Sınaq şüşəsinə kiçik sink parçası salın və 3-4 damcı xlorid turşusu əlavə edin. Nə müşahidə olundu? Müşahidə olunan hadisənin növünü müəyyən edin. Cavabınızı əsaslandırın.

5. Sınaq şüşəsinə təbaşir tozu tükün və 3-4 damcı xlorid turşusu əlavə edin. Hansı hadisə müşahidə olundu?

6. Sınaq şüşəsinə mis(II)sulfat məhlulu töküb, 3-4 damcı natrium-hidroksid məhlulu əlavə edin. Nə müşahidə olundu? Müşahidə olunan dəyişikliyi hansı hadisəyə aid etmık olar?

Təcrübələr müəllimin şagirdləri şifahi təlimatlandırması və birbaşa iştirakı

ilə aparılır. Belə ki, müəllim təcrübələri ardıcıl olaraq aparır, şagirdlər isə eyni əməliyyatı təkrar edirlər. Məllim hər bir təcrübənin gedişində şagirdlərə «Nə müşahidə olundu?» sualını verir. Sonda təcrübələrdən aşağıdakı nəticələr çıxarılır:

Birinci sınaq şüşəsində şəkər tozu həll oldu, ikincidə su buxara çevrildi, üçüncüdə təbaşir parçası formasını dəyişdi, dördüncüdə və beşincidə qaz ayrıldı, altıncıda çöküntü alındı. Təcrübələrdə müşahidə olunan əlamətlərə görə maddələr xarakterizə olunur. 1-3-cü sınaq şüşələrində maddələrin fiziki halı dəyişir, yeni maddə əmələ gəlmir (fiziki hadisədir). 4-6-cı sınaq şüşələrində yeni maddələr əmələ gəlir (kimyəvi hadisədir). Fiziki hadisə maddənin fiziki halının dəyişməsi ilə müşayiət olunur. Kimyəvi hadisə maddənin tərkibinin, kimyəvi xassəsinin dəyişməsi və nəticədə başqa maddəyə çevrilməsi ilə müşayiət olunur. Şagirdlər təcrübədə fiziki və kimyəvi hadisələri xarakterizə edən əlamətləri öyrənməklə yanaşı onlarda kimya eksperimentini aparmaq bacarığı da formalaşır.

7-ci sinifin kimya kursunda «Məhlullar» mövzusunun tədrisində də frontal laboratoriya işlərinin aparılmasını təşkil etmək mümkündür. Bu mövzu şagirdlərin fiziki və kimyəvi hadisələrə dair biliklərinə istinad olunmaqla öyrədilir.

**Mövzu: Məhlullar.**

**Təchizat:** $CaCO_3$, $NH_4NO_3$, $CuSO_4$(susuz), $H_2SO_4$, NaCl (xörək duzu), $KNO_3$, distillə suyu, stəkanlar, sınaq şüşələri, şüşə çubuqlar, spirt lampaları, bərk maddələrin və qazların həllolma əyriləri.

**Frontal laboratoriya işləri**

Müəllim şifahi təlimat əsasında mövzuya dair aşağıdakı təcrübələrin aparılmasını təşkil edir.

1. Sınaq şüşəsinə bir qədər natrium-xlorid (xörək duzu) tökün və su əlavə edərək qarışdırın. Nə müşahidə olundu? Müşahidə olunan hadisəni izah edin.

2. Sınaq şüşəsinə bir qədər kalsium-karbonat tökün və su əlavə edərək qarışdırın. Nə müşahidə olundu?

3. Sınaq şüşəsinə bir qədər su tökün və otaq temperaturunda həllolmayan hissəsi qalana qədər kalium-nitrat əlavə edib qarışdırın. Sonra spirt lampası alovunda duzun artıq qalan hissəsi tam həll olana qədər qızdırın. Qızdırmanı dayandırıb məhlulu otaq temperaturunda saxlayın. Nə müşahidə olunur? Duzların həllolma cədvəlindən istifadə edərək kalium-nitratın həllolmasının temperaturdan asılılığını xarakterizə edin.

4. Stəkana 20 ml su tökün, 3 və ya 4 damcı qatı sulfat turşucu əlavə edin və əlinizlə stəkana ehtiyatla toxunun. Nə müşahidə olundu?

5. Stəkana 20 ml su tökün və bərk halda 1qram ammonium nitrat əlavə edib qarışdırın və əlinizlə stəkana toxunun. Nə müşahidə olundu?

6. Stəkana bir qədər su tökün, 1 qram susuz mis(II)sulfat əlavə edib qarışdırın. Nə müşahidə olundu? Mis(II)sulfatın su ilə qarşılıqlı təsirini hansı hadisəyə aid etmək olar?

Laboratoriya işlərinin nəticələri sinifin bütün şagirdlərinin iştiraki ilə müzakirə olunur.

Şagirdlər birinci təcrübədə xörək duzunun tam həll olduğunu, ikinci təcrübədə kalsium-karbonatın heç həll olmadığını qeyd edirlər. Üçüncü sınaq şüşəsində kalium-nitratın həllolmsınn temperaturdan asılı olaraq dəyişməsinə istinad edərək şagirdlərdə məhlulların qatılığı haqqında təsəvvür yaradılır, doymamış, doymuş və ifrat doymuş məhlullar haqqında izahat verilir.

Sonra təcrübələrdə müşahidə olunan əlamətlər göstərilir və izah olunur. Müəllim 4,5 və 6-cı təcrübələrdə müşahidə olunan hadisələri - istiliyin ayrılması (4-cü təcrübə), istiliyin udulması (5-ci təcrübə) və rəngin dəyişməsinin (6-cı təcrübə) səbəbini nisbətən sadə formada izah edir. O, göstərir ki, maddəni həllediciyə daxil etdikdə həlledici molekullarının təsirindən onun kristal qəfəsi dağılır. Maddə, molekullar və ya ionlar halında həlledici molekulları arasında bərabər paylanır. Bu prosesin fiziki hadisə olduğu şagirdlərin diqqətinə çatdırılır.

Maddənin kristal qəfəsinin dağılmasına enerji sərf olunur (endotermik proses). Maddə hissəcikləri həlledici molekulları ilə qarşılıqlı təsirdə olaraq davamsız birləşmələr əmələ gəitrir. Bu proses kimyəvi hadisə ilə müşayiət olunur. Müəllim qeyd edir ki, həlledici su olduqda bu tip birləşmələr «hidratlar», həlledici üzvi maddə (məsələn, etil spirti, benzol, toluol və s.) olduqda «solvatlar» adlanır. Prosesin özunə müvafiq olaraq «hidratlaşma» və «solvatlaşma» deyilir Hidratlar və solvatlar davamsız birləşmələrdir. Bu prosesdə istilik ayrılır (ekzotermik proses). Həllolmanın istilik effekti bu proseslərin enerji fərqinə bərabər olur. Sulfat turşusunun hissəciklərə ayrılmasına sərf olunan enerji onların həlledici molekulları ilə birləşməsindən ayrılan enerjidən az olduğuna görə bu maddənin həllolması istiliyin ayrılması ilə müşayiət olunur. 5-ci təcrübədə ammonium nitratın həllolması prosecində istiliyin udulması nəticəsində güclü soyumanın maddənin kristal gəfəsinin dağılmasına sərf olunan enerjinin hidratlaşma istiliyindən çox olması ilə izah olunur.

Müəllim şagirdlərin diqqətini 6-cı təcrubəyə yönəldir. Göstərir ki, ağ rəngli mis(II)sulfat su ilə qarşılıqlı təsirdə olduqda özünə müəyyən sayda su molekullarını birlədirməklə göy rəngli maddəyə çevrilir:

$$CuSO_4 + 5\ H_2O \rightarrow CuSO_4 \cdot 5H_2O$$

Bu tip maddələrə «kristalhidratlar», tərkiblərindəki suya «kristallaşma suyu» deyilir.

Beləliklə, 4-6-cı təcrübələrdə həllolmanın fiziki-kimyəvi proses olduğuna dair nəticə çıxarılır.

8-ci sinif şagirdlərində laboratoriya eksperimentinin aparılmasına dair müəyyən bacarıq və vərdişlərin formalaşdığını nəzərə alaraq kimya müəllimi onlara yazılı təlimat əsasında işləməyi öyrədir. Yazılı təlimatda laboratoriyada işləməyin ümümi qaydaları göstərilir.

Burada «Turşuların kimyəvi xassələri» mövzusunun tədrisində təşkil olunan frontal laboratoriya işlərinin yazılı təlimatı veriir.

**Turşuların kimyəvi xassələrinin öyrənilməsində aparılan frontal laboratoriya işlərinin yazılı təlimatı**

- təhlükəsizlik texnikası qaydalarına əməl et
- qələvilər və turşularla ehtiyatlı davran
- şüşə qablarla ehtiyatlı davran
- reaktivlərin az miqdarı ilə işlə
- işin sonunda iş yerini təmizlə
- dərsin sonunda əllərini sabunla yumağı unutma

**Təchizat:** duru sulfat turşusu, sink metalı, mis(II) oksid, kalium-hidroksid, barium xlorid, lakmusun və fenolftaleinin spirtdə məhlulları, spirt lampası, sınaq şüşələri.

1. Sınaq şüşəsinə 3 ml duru sulfat turşusu töküb, üzərinə 3 damcı lakmusun spirtdə məhlulunu əlavə edin. Nə müşahidə olundu? Lakmusun rəngininin dəyişməsinin səbəbini izah edin.
2. Sınaq şüşəsinə bir sink parçası salın və üzərinə 3 ml duru sulfat turşusu əlavə edin. Nə müşahidə olunur? Kimyəvi reaksiyanın tənliyini yazın və əmsallaşdırın.
3. Sınaq şüşəsinə 0,5 q. mis(II)oksid tozu tökün və üzərinə 3və ya 4 ml sulfat tupşusu əlavə edib spirt lampasının alovunda qızdırın. Nə müşahidə olundu? Kimyəvi reaksiyanın tənliyini yazın və əmsallaşdırın.
4. Sınaq şüşəsinə 4 ml kalium-hidroksid məhlulu tökün və üzərinə 3 və ya 4 damcı fenolftaleinin spirtdə məhlulunu əlavə edin. Nə müşahidə olundu? Alınan məhlula tədricən xlorid turşusu əlavə edin. Reaksiya nəticəsində nə müşahidə olundu? Kimyəvi reaksiyanın tənliyini yazın, əmsallaşdırın və müşahidə olunan hadisələri izah edin.
5. Sınaq şüşəsinə 3 ml barium-xlorid məhlulu tökün və ona həmin həcmdə sulfat turşusu əlavə edin. Nə müşahidə olunduğunu qeyd edin və reaksiya tənliyini yazıb əmsallaşdırın.

Laboratoriya işlərinin nəticələri sinif şagirdlərinin iştirakı ilə müzkirə olunur. Şagirdlərin şifahi izahatı əsasında təcrübələrdə müşahidə olunan hadisələr müqayisə olunaraq turşuların xassələrinə dair ümumi nəticə çıxarılır. 8-ci sinifin kimya kursunda bu tip frontal laboratoriya işlərinin aparılması üçün geniş imkanlar mövcuddur.

9-cu sinifdə kimya kursunun tədrisində şagirdlərin nəzəri biliklərinin praktika ilə əlagəsinin inkişaf etdirilməsi və onlarda bacarıq və vərdişlərin formalaşmasına qısa müddətli frontal laboratoriya işlərinin aparılması ilə nail olmaq olar. Burada nümunə olaraq «Dəmir» mövzusu üzrə aparılan frontal laboratoriya işinin yazılı təlimatı verilir.

**Dəmirin kimyəvi xassələrinin öyrənilməsində aparılan frontal laboratoriya işlərinin yazılı təlimatı**

* təhlükəsizlik texnikası qaydalarına əməl et
* qələvilər və turşularla ehtiyatlı davran
* şüşə qablarla ehtiyatlı davran
* reaktivlərin az miqdarı ilə işlə
* işin sonunda iş yerini təmizlə
* dərsin sonunda əllərini sabunla yumağı unutma

**Təchizat:** dəmir metalı, duru sulfat və xlorid turşusu, dəmir(II)xlorid, dəmir(III)xlorid, natrium-hidroksid, kalium-yodid, dəmir(III)sulfat, nişasta məhlulu, mis(II)sulfat, sarı və qırmızı qan duzu, distillə suyu, sınaq şüşələri.

1. İki sınaq şüşəsi götürün və onlardan birinə duru sulfat və ya xlorid turşusu, ikincisinə mis(II)sulfat məhlulu tökün. Sınaq şüşəlırinin hər birinə kiçik dəmir parçası salın. Sınaq şüşələrində gedən reaksiyaları müşahidə edin və reksiyaların tənliklərini yazın.

2. İki sınaq şüşəsi götürün. Onlardan birinə 4 ml dəmir(II)xlorid, digərinə həmin həcmdə dəmir(III)xlorid məhlulu tökün. Sınaq şüşələrinin hər birinə xarakterik rəngli çöküntü alınana qədər natrium-hidroksid məhlulu əlavə edin. Nə müşahidə olunur? Reaksiya tənliklərini yazın və izah edin.

3. 200 ml həcmində stəkana 50 ml dəmir(II)sulfat məhlulu tökün. Onun üzərinə 10 ml sulfat turşusu və 40 ml hidrogen peroksid məhlulu əlavə edin. Reaksiya nəticəsində əmələ gələn dəyişikliyi izah edin və reaksiya tənliyini yazın. Məhlulda $Fe^3$ ionlarının olmasını sarı qan duzunun məhlulu ilə təyin edin və reaksiya tənliyini yazın.

4. Üçüncü təcrübədə olduğu kimi 200 ml həcmində stəkana 50 ml dəmir(III)sulfat məhlulu tökün. Onun üzərinə 20 ml kalium-yodid məhlulu əlavə edin. Reaksiya nəticəsində əmələ gələn dəyişikliyi izah edin və reaksiya tənliyini yazın. Məhlulda $Fe^2$ ionlarının olmasını qırmızı qan duzunun məhlulu ilə təyin edin və reaksiya tənliyini yazın. Reaksiya nəticəsində yodun əmələ gəldiyini nişasta məhlulu ilə təyin edin. Dəmirin xassələrinin öyrənilməsinə dair aparılan frontal laboratiriya işlərinin nəticələri sinff şagirdləri ilə müzakirə olunur. Şagirdlər şifahi izahat verir, reaksiya tənliklərini lövhədə və dəftərlərində yazırlar.

10-cu və 11-ci sinif şagirdəli kimyadan laboratoriya işlərinin aparılmasında daha çox müstəqil olurlar. Bu siniflərin şagirdlərində laboratoriyada işləmək qaydalarına dair bacarıq və vərdişlərin yarandığını nəzərə alaraq təlimat nisbətən sadələşdirilə bilər.

Burada 10-cu sinifin kimya kursunda «Karbon» müvzusunun tədrisində müəllimin yazılı təlimatı əsasında aparılan qısamüddətli frontal laboratoriya işinin mətni verilir.

**Karbonatların kimyəvi xassələrinin öyrənilməsində aparılan frontal laboratoriya işlərinin yazılı təlimatı**

**Təchizat:** təbaşir, mərmər, xlorid turşusu, karbon dioksid, əhəng suyu, distillə suyu, natrium karbonat, Vürs kolbası,tıxaclar, qazaparan borular, sınaq şüşələri, spirt lampası, şüşə çubuqlar.

1. Qaz almaq üçün islədilən (Vürs kolbası və qazaparn borudan ibarət) sadə cihazı quraşdırın. Kolbaya bir gədər təbaşir və ya mərmər qırıntıları salıb üzərinə xlorid turşusu əlavə etməklə karbon dioksid alın. Qazaparan borunun ucunu içərisində şəffaf əhəng suyu olan sınaq şüşəsinə salın. Bulantı əmələ gələndə qazın daxil olmasını dayandırın. Karbon dioksidin kolbaya daxil olmasını yenidən davam etdirin. Reaksiya tənliklərini yazın və müşahidə olunan hadisələri izah edin.

2. Sınaq şüşəsinə distillə suyu tökün və ona 3 damcı lakmusun spirtdə məhlulunu əlavə edin. Sonra sınaq şüşəsinə qazaparan boru vastəsilə karbon dioksid daxil edin. Karbon diosidin daxil olmasını dayandırıb sınaq şüşəsini spirt lampasının alovunda qızdırın. Mşahidə olunan hadisələri izah edin və reaksiya tənliklərini yazın.

3. İki sınaq şüşəsi götürün. Onlardan birinə 0,5 q natrium karbonat, digərinə həmin miqdarda təbaşir tozu tökün. Sınaq şuşələrinin hər birinə distillə suyu əlavə edib, şüşə çubuqla qarışdırın. Nə müşahidə olunur? Sonra qaz alınan cihazdan sınaq şüşələrinə karbon dioksid daxil edin. Müşahidələriniz əsasında karbonatların həll olmasına dair nəticə çıxarın və reaksiya tənliklərini yazın.

Laboratoriya işlərinin nəticələri müzakirə olunur və karbonatların xassələrinə dair şagirdlərin bilikləri möhkəmlənir.

11-ci sinifin üzvi kimya kursunun tədrisində qısa müddətli frontal laboratoriya işlərinin aparılması şagirdlərin yeni materialı dərindən mənimsəmələri üçün əlverişli şərait yaradır. Aşağıda «Qlükoza» müvzusunun tədrisində aparılan qısa müddətli frontal laboratoriya işlərinin yazılı təlimatı verilir.

**Qlükozanın kimyəvi xassələrinin öyrənilməsində aparılan frontal laboratoriya işlərinin yazılı təlimatı**

**Təchizat:** qlükoza, natrium-hidroksid, mis(II)sulfat, gümüş(I)nitrat, ammonyak, sınaq şüşələri, spirt lampası.

1.Sınaq şüşəsinə 0,5 qram qlükoza tozu tökün və üzərinə 10 ml su əlavə edb qarışdırın. Nə şüşahidə olunur. Qlükoza suda həll olurmu. Cavabınızı əsaslandırın.

2. Sınaq şüşəsinə 5 ml natrium-hidroksid tökün və onun üzərinə bir neçə damcı mis(II)sulfat məhlulu əlavə edin. Əmələ gələn göy rəngli mis(II)hidroksidi süzün və başqa sınaq şüşəsinə köçürün. Çöküntünün üzərinə 5 ml qlükaza məhlulu əlavə edib, alınan qarışıqğı spirt lampası alovunda qızdırın. Təcrübəni diqqətlə izləyin. Reaksiyaların gedişində müşahidə olunan əlamətləri aldehidlərin

quruluşuna dair biliklərinizə istinad etməklə izah etməyə çalışın. Reaksiyaların tənliklərini yazın.

3.Sınaq şüşəsinə 1ml gümüş(I)nitrat məhlulu tökün və üzərinə ammonyakın duru nəhlulunu əlavə edin. Sınaq şüşəsində gedən reaksiyada gümüş(I)oksidin əmələ gəlməsi və ammonyakın artığında həllolaraq $[Ag(NH_3)_2]OH$ tərkibli kompleks birləşmənin əmələ gəlməsini xarakterizə edən əlamətləri müşahidə edin və müvafiq reaksiyaların tənliklərini yazın. Sonra sınaq şüşəsindəki reaksiya məhsuluna qlükoza məhlulu əlavə edib, spirt lampası alvunda qızdırın.

Reaksiya nəticəsində əmələ gələn dəyişikliyi izah edin, aldehidlərlə qlukazanın quruluşunda olan oxşarlığı müşahidələriniz əsasında izah edin və reaksiya tənliklərini yazın.

## İstifadə edilmiş ədəbiyyat:

1.M.M.Abbasov, V.M.Abbasov, N.Ə.Abışov, V.S.Əliyev. Kimya. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2014.

2.M.M.Abbasov, A.H.Əliyev. Kimya 7-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2014.

3. R.Ə.Əliyeva, V..M.Abbasov, A.M.Məhərrəmov, M.M.Abbasov, S.R.Hacıyeva və. b. Kimya. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, 2015.

4.M.M.Abbasov, A.H.Əliyev. Kimya 8-ci sinif. Müəllim üçün metodik vəsait. Bakı, 2015.

5. V.M.Abbasov, M.M.Abbasov, R.Y.Əliyev və b. Kimya. Ümumtəhsil məktəblərinin 9-ci sinfi üçün dərslik. Bakı, 2005.

6. V.M.Abbasov, A.M.Məhərrəmov, M.M.Abbasov və b. Kimya. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı, 2005.

7. V.M.Abbasov, A.M.Məhərrəmov, M.M.Abbasov və b. Kimya. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Bakı, 2007.

8. Э.Г.Золотников. Химический эксперимент в условиях развивающего обучения. Химия в школе, 2001, № 1.

9. А.А.Гусев. Химический эксперимент как важнейший метод обучения.www. bfnm. ru/ DSWM edia/gusevaa.doc.

10. Л.А. Цветков. Методика демонстрационного эксперимента по органической химии. WWW. Xmikat.com/ info.php?id=84.

*Б.Г.Мамедов, В.Х.Аскеров*

**Методика организации и проведения фронтальных лабораторных работ по химии в 7-11 классах**

## РЕЗЮМЕ

В начале статьи охарактеризованы значение и методика проводения фронтальных лабораторных работ в курсе химии средней школы. Показано, что при самостоятельном выполнении лабораторных работ учащиеся быстрее усваивают знания о свойствах вещества и химических процессах. Фронтальные лабораторные работы обогащают их новыми знаниями, умениями, навыками, способствуют более глубокому пониманию и усвоению материала, а также является способом проверки истинности приобретенных знаний. В курсе химии 7-11 классов, по отдельным темам описана методика организации и проведения фронтальных лабораторных работ по устной и письменной инструкции учителей.

*B.G.Mammadov, V.H.Asgarov*

**Methods of organizing and conducting the front laboratory works on chemistry in grades 7-11**

## SUMMARY

The significance and methodology of conducting front laboratory work in the course of Chemistry of secondary school were characterized at the beginning of the article. It's shown that at independent performance of laboratory work, students will assimilate the knowledge about the properties of substances and chemical processes. Front laboratory works enrich them with new knowledge and skills, contribute to better understanding and assimilation of the material, as well as it is a method checking the validity of the knowledge acquired. A method of organizing and conducting frontal laboratory work on oral and written instructions of teachers was described in the course of chemistry of 7-11 classes, on specific topics.

**Açar sözlər:** frontal laboratoriya işləri, şifahi təlimat, yazılı təlimat, eksperimental bacarıq.

**Ключевые слова:** фронтальные лабораторные работы, устная инструкция, письменная инструкция, экспериментальная умения.

**Key words:** front laboratory work, oral instruction, written instructions, experimental skill.